

**Eldəniz Abdullayev:**

# "Ənənəmizə sadiqik..."

***Müsahibimiz Zərdab Rayon Mədəniyyət Şöbəsinin müdiri Eldəniz Abdullayevdir. O bu məsul vəzifədə 1999-cu ilin avqustundan çalışır. Nadir şöbə müdirlərindəndir ki, əmək fəaliyyətinə başladığı 35 ilə yaxın müddətdə eyni ünvanda işləyib. Məhz elə buna görə də əmək kitabçasında cəmi iki qeyd var. 1971-1999-cu illərdə Zərdab rayon mədəniyyət evinin direktoru, 1999-cu ildən indiyədək mədəniyyət şöbəsinin müdiri.***

Bütün bunlar Eldəniz müəllimin dost və tanışlarına olduğu kimi, sənətinə də ürəkdən bağlı, sadiq olduğuna dəlalət edir. Onun rəhbərliyi altında şöbə çox uğurlara imza atıb.

E.Abdullayev 1949-cu ildə anadan olub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti mədəni-maarif fakültəsinin məzunudur. Bir oğul atasıdır.

-Mədəniyyət hər bir xalqın mənəvi dünyasının milli mövcudluğunun əsas atributlarından biridir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hər sahədə olduğu kimi mədəniyyət sahəsinə də diqqəti son illər bir qədər artırmışdır. 1990-1994-cü illər Azərbaycanda ən ağır illər olmuşdur. Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ardıcıl yaradıcı inkişafa başlamışdır. Bütün bu çətinliklərə dözərək, millətin sərvətini nəyin bahasına olursa olsun, xalq üçün qoruyub saxlamaq lazımdır. Bunlar mədəni-maarif müəssisələri vasitəsi ilə həyata keçirilir.

Hazırda müstəqillik və demokratiya yolunda inamla irəlilədiyimiz bir vaxtda cəmiyyət həyatında insanların potensial qüvvələrinin, fərdi qabiliyyətinin işə salınması həyatı tələbata çevrilmişdir. Mədəni həyatın demokratikləşdirilməsi,gənclərin, yeniyetmələrin, əmək qabiliyyətli insanların bir prosesdə yaxından iştirakı, əhalinin mədəni həyat səviyyəsinin daha da yüksəlməsi yolunda böyük addımlar atılmışdır. Bütün bu vəzifələrin yerinə yetirilməsində rayon mədəniyyət şöbəsinin tabeliyində 1 rayon mədəniyyət evi, 20 kənd mədəniyyət evi, 2 klub, 42 kitabxana filialı, 1 mərkəzi kitabxana, 1 uşaq kitabxanası, 5 şəhər kitabxana filialı, ümumən MKS-də 49 kitabxana filialı, 1 Tarix-diyarşünaslıq muzeyi, 1 uşaq incəsənət məktəbi fəaliyyət göstərir. Mədəni-maarif müəssisələrində 246 nəfər işçi çalışır ki, onlardan MKS-də çalışan 79 nəfər mütəxəssisin 15 nəfəri ali təhsilli, 55 nəfəri orta ixtisas təhsilli, 3 nəfəri isə ümumi orta təhsillidir.

Mədəniyyət müəssisələrində və klublarda isə 95 nəfər işçi çalışır ki, onlardan 14 nəfəri ali təhsilli, 76 nəfəri orta təhsilli, 5 nəfəri ümumi orta ixtisas təhsillidir.

Tarix-diyarşünaslıq muzeyində 7 nəfər işçidən 3 nəfəri ali təhsilli, 4 nəfəri orta ixtisas təhsillidir.

Uşaq incəsənət məktəbində çalışan 61 nəfər müəllimdən 7 nəfəri ali təhsilli, 34 nəfəri orta ixtisas təhsilli, 20 nəfəri ümumi orta təhsillidir.

Mədəni-maarif müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində 2004-cü ildə bir sıra addımlar atılmışdır.

Gəlmə kənd mədəniyyət evi bütünlüklə təmir edilmiş, yeni stollar, musiqi alətləri və digər idarə ləvazimatları ilə təmin edilmişdir. Rayon mədəniyyət evinin 500 yerlik binası əsaslı təmir edilmiş, maddi-texniki bazası daha da möhkəmləndirilmişdir. Bu tədbirlər uşaq incəsənət məktəbində, MKS-də, 21 saylı Fəhlə qəsəbə klubunda və kitabxana filialında, Qoruqbağı, Gəndəbil, Əlvənd kənd mədəniyyət evlərində də həyata keçirilmişdir.

Ümumən mədəni-maarif müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün 43 milyon manat dəyərində vəsait ayrılmış və xərclər



təyinatı üzrə istiqamətləndirilmişdir.

Zərdab rayon mədəni-maarif müəssisələrinin bina vəziyyəti digər rayonların bina şəraitindən köklü surətdə fərqlənir. Belə ki, bu tikintilərin əksəriyyəti 70-ci illərdə ümummilli liderimiz H.Əliyevin respublikada apardığı quruculuq illərinə təsadüf etdiyindən müəssisələrin bina şəraiti demək olar ki, qənaətbəxşdir. Yalnız Zərdab, Yarməmmədbağı kənd mədəniyyət evləri, Bəyimli qəsəbə klubunun əsaslı təmirə ehtiyacı vardır. 3 kənd kitabxana filialları, Gəndəbil, Allahqulubağı, Dəkkə kənd kitabxana filialları yeni binalara köçürülmüş, onlar üçün lazımi şərait yaradılmışdır. Məlumat üçün bildiririk ki, Zərdab rayonunda şəxsi evlərdə yerləşdirilmiş mədəni-maarif müəssisələri yoxdur.

Şöbəmizin tabeliyində fəaliyyət göstərən 79 mədəni-maarif müəssisəsinin gücündən istifadə edərək tarixi əlamətdar günlərin, bayramların və yubiley tədbirlərinin təşkili ilə bağlı müəyyən işlər görülmüşdür.

Xalq öz keçmişini bilməli, gələcək nəsillər xalqımızın başına gətirilmiş hadisələri eşitməli və onları yadda saxlamalıdır. Tarixini bilməyən xalq ölümə məhkumdur və ya bir xalqı məhv etmək istəyirsənsə, onun tarixini əlindən al və ya təhrif elə. Tarix isə belə eybəcərlikləri sevmir, onu gizlətmək çətindir. Gec-tez hər şey öz yoluna düşəcək. Bəli, belə də oldu. Heç ağlımıza da gəlməzdi ki, yaxın qonşu dediyimiz o "məzlum" xalq daxilində bizə kin-küdurət bəsləyir. Dünyaya gəlmiş körpənin qulağına söylədiyi ilk söz "Türk sənin düşmənindir" kəlamıdır. Biz isə beynəlmiləl xalqıq deyə başımızın altına balınc qoyub yatırıq. Yenə də Heydər müdrikliyi, Heydər uzaqgörənliyi, Heydər siyasəti xalqın, millətin gözünü açdı, dostunu, düşmənini ona tanıtdı.

20 Yanvar və Xocalı faciəsinə həsr olunmuş tədbirlər mədəni-maarif müəssisələrində geniş miqyasda qeyd olunmuşdur.

31 mart Azərbaycanlıların soyqırımı gününün qeyd olunması haqqında Zərdab Rayon İcra Hakimiyyəti başçısının 10 mart 2004-cü il tarixli tədbirlər planına əsasən mədəni-maarif müəssisələrində söhbətlər, məruzələr, diskusiyalar Şamaxı və Quba qırğınlarından bəhs edən söhbətlər təşkil edilmişdir. Bu görüşlərdə bədxah qonşuların iyrənc, ikiüzlü siması bir daha açılıb ictimaiyyətə çatdırılmışdır.

28 may ADC-nin yaranmasının ildönümü ilə əlaqədar mədəni-maarif müəssisələrində əlavə tədbirlər planı hazırlanmış və icrası təmin edilmişdir. Rayon mədəniyyət evində "Ay-ulduzlu bayrağı qoruyaq!" devizi altında təşkil olunmuş şənliklərdə ADC-nin yaranma tarixindən və şəraitindən, onun birillik fəaliyyət dövründən, Azərbaycan xalqına bəxş etdiyi azadlıqdan, dövlətçilikdən, ərazi quruculuğundan, Azərbaycanın daxili düşmənlərindən geniş söhbət açılmışdır.

Tarixi əlamətdar günlərdən 1 iyun Uşaqların Beynəlxalq Müdafiə günü ilə əlaqədar MKS-də, 15 iyun Milli Qurtuluş günü ilə əlaqədar mədəniyyət evində, 26 iyun Azərbaycan Silahlı Qüvvələri günü münasibətilə, 25.01.2004-cü il tarixdə Yevlax şəhərində "N" saylı hərbi hissədə maraqlı konsert proqramı ilə çıxışlar olmuşdur. Azərbaycanın Milli Mətbuat günü ilə əlaqədar MKS-də 22 iyul 2004-cü il tarixdə "N.B.Zərdabi və Milli mətbuatımız", "H.B.Zərdabi və Əkinçilik", "H.B.Zərdabi bir xeyriyyəçi kimi" mövzuları ətrafında geniş diskusiyalar təşkil edilmişdir.

Bundan başqa 18 sentyabr-Milli musiqi günü ilə bağlı uşaq incəsənət məktəbində "Üzeyirin musiqili dünyası" devizi altında maraqlı konsert proqramı təşkil edilmişdir. 12 noyabr-Azərbaycan Konstitusiyası ilə əlaqədar MKS-də, 3 dekabr 2004-cü ildə "Asudə vaxt" mərkəzində, Beynəlxalq Əlillər günü ilə əlaqədar "Əl tutmaq Əlidən qalıb" devizi altında musiqili konsert proqramı təşkil edilmişdir. Bu tədbirdə şəhid ailələri, Qarabağ veteranları, Çernobıl əlilləri, Böyük Vətən müharibəsi əlilləri, sosial əlillər iştirak etmişdir. Tədbirin sonunda onlara maddi yardımlar paylanmışdır.

31 dekabr Dünya azərbaycanlılarının həmrəylik günü və Yeni il şənlikləri ilə əlaqədar rayon mədəniyyət evində böyük bayram təşkil edilmişdir. Tarixi əlamətdar günlərlə yanaşı mədəni-ma-

arif müəssisələrində görkəmli elm xadimlərinin, yazıçı və şairlərin həyat və yaradıcılığı ilə əlaqədar geniş tədbirlər planı hazırlanmışdır. Mədəni-maarif müəssisələrində keçirilən tədbirlərdən Yarməmmədbağı kənd mədəniyyət evində Qasım bəy Zakirin anadan olmasının 220-illik gecə, Əlvənd kənd mədəniyyət evində Əliağa Vahidin 110-illik, Şahsünlü kənd mədəniyyət evində İsmayıl Şıxlının anadan olmasının 85-illiyi, Əlvənd kənd mədəniyyət evi və kitabxanada Mehdi Hüseynin 95 illiyi, Asəf Zeynallının 95 illik, Soltan Hacıbəyovun 85 illiyi keçirilmişdir. Pərvanlı kənd mədəniyyət evində kitabxana filialı ilə birlikdə Vaqif Səmədoğlunun 65 illik yubileyi, Alcanlı kənd mədəniyyət evində Abasquluağa Bakıxanovun 210 illik yubileyi, bütün mədəni-maarif müəssisələrində, o cümlədən MKS-də İlyas Əfəndiyevin 90 illik yubileyi geniş şəkildə qeyd edilmişdir. Bundan başqa digər mədəni-maarif müəssisələrində, veteranlar klubunda, "Asudə vaxt" mərkəzində, Zərdab kənd mədəniyyət evində və kitabxana filiallarında yazıçı və şairlərin həyat və yaradıcılığından bəhs edən xatirə gecələri, görüşlər, kitab müzakirələri təşkil edilmişdir.

Mədəni-maarif müəssisələrinin əsas fəaliyyətinin özəyini təşkil edən amillərdən biri də xalq yaradıcılığı və özfəaliyyət işinin təşkilidir. Mədəni-maarif müəssisələrinin bu işin təşkilində problemləri mövcud olsa da, bədii özfəaliyyət kollektivlərinin, dərnəklərin inkişaf etdirilməsi üçün son zamanlar bir sıra tədbirlər görülmüş, özfəaliyyət yaradıcılıq işi diqqət mərkəzində saxlanılmışdır. Mədəniyyət şöbəsinin nəzdində fəaliyyət göstərən mədəni-maarif müəssisələrinin 85 bədii özfəaliyyət dərnəyi bu dərnəklərin 1065 nəfər üzvü vardır. Bu dərnəklərdən 58-i uşaq və yeniyetmələr üçün təşkil edilmişdir ki, onların 766 nəfər üzvü vardır. Lakin yuxarıda qeyd edildiyi kimi dərnəklərin inkişafında bir sıra nöqsanlar da mövcuddur. Musiqi alətlərinin, dərnəklər üçün dekorasiyaların, səhnə paltarlarının, rəqs qrupu üçün rəqs paltarlarının yetərincə, kifayət qədər olmadığı sadalanan nöqsanlardan ən əsasıdır. Digər çatışmazlıq dərnəklərin inkişaf etdirilməsi ilə bağlı kadrların yerlərə ezamı ilə əlaqədardır. Belə ki, müəssisələrdə dərnəklər təşkil etmək mümkün olmadığı halda bu dərnəklərə rəhbərlik edəcək kadrları yerlərə göndərmək, onları qane edən əmək haqqının verilməsinin mümkün olmaması dərnəklərin inkişaf etdirilməsinə təsir edən mühüm amillərdir. Bu nöqsanlara, çatışmamazlıqlara baxmayaraq mədəni-maarif müəssisələri onlarda fəaliyyət göstərən özfəaliyyət dərnəklərinin gücündən istifadə edərək, məktəblilərin yay tətili günlərində asudə vaxtılarının səmərəli təşkilində əməli tədbirlər görmüşlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4.08.2000-ci il tarixli 146 saylı sərəncamı ilə təsdiq edilmiş istedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial-iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən dövlət proqramlarının həyata keçirilməsi sahəsində bir sıra silsilə tədbirlər həyata keçirilmişdir. Zərdab Rayon İHB dövlət proqramının həyata keçirilməsi ilə əlaqədar 5 aprel 2000-ci il tarixdən etibarən hər il sərəncam imzalamışdır. Bu sərəncama əsasən istedadlı gənclərin aşkar edilməsi, onların istedad və bacarıqlarının inkişaf etdirilməsi tədbirləri, bədii özfəaliyyət kollektivlərinə baxış müsabiqəsinin əsasnaməsi əsasında həyata keçirilmişdir. Əsasnaməyə əsasən 1-ci tur yerlərdə, inzibati ərazi vahidliyində aprel ayının 10-dan 20-dək, 2-ci tur zonalarda 20 apreldən 30 aprelədək, 3-cü yekun turu qrafik üzrə rayon mədəniyyət evində 5 may 2004-cü ildən 15 may 2004-cü ilədək davam etdirilmişdir. Bu müsabiqədə 300-ə yaxın uşaq dinlənilmiş, onlardan 40 nəfəri müsabiqənin qalibi olmuşdur. Müsabiqə qaliblərinin yekun konserti 28 may Azərbaycan Demokratik Cumhuriyyətinin ildönümünə həsr edilmişdir. Müsabiqədə bir nəfərin meyxana janrına daha çox meyl göstərdiyi aşkar edilmişdir. Aşkar edilmiş uşaqların 14 nəfəri uşaq incəsənət məktəbinin tar, qarmon, nağara, piano siniflərinə, 6 nəfəri isə səs şöbəsinə qəbul edilmişdir. Sevindirici haldır ki, 2004-cü ildə baxış-müsabiqəsininin qalibi olmuş 3 nəfər istedadlı uşaq Asəf Zeynallı adına musiqi məktəbinə, 2003-cü ildə baxış müsabiqəsinin qalibi olmuş 1 istedadlı uşaq isə Bülbül adına musiqi məktəbinə daxil olmuşdur. Bütün bunlar istedadlı uşaq və yeniyetmələrlə aparılan işlərin yaxşı nəticəsidir.



Bundan başqa 18 oktyabr 2004-cü il tarixdə dövlət müstəqilliyinin 12-ci ildönümü münasibətilə istedadlı uşaqların əl işlərinə, rəsm əsərlərinə həsr olunmuş baxış-müsabiqəsi təşkil edilmişdir. Bu müsabiqədə də 12 nəfər istedadlı uşaq və yeniyetmə aşkar edilmiş, onlar Gənclər, İdman və Turizm idarəsi tərəfindən müxtəlif mükafatlara və diplomlara layiq görülmüşlər. Bu müsabiqədə 4 nəfər istedadlı gənc uşaq incəsənət məktəbinin rəssamlıq sinfinə qəbul edilmişdir. Aşkar edilmiş uşaqların daha da inkişaf etdirilməsi üçün rayon mədəniyyət evində təşkil olunmuş bütün tədbirlərdə onların iştirakı təmin edilir. Bundan başqa onlar özfəaliyyət kollektivlərinə daxil edilmişlər. Bu da onlara öz bacarıqlarını inkişaf etdirməyə imkan verir.

Son illər mədəni-maarif müəssisələrində özünə daha önəmli yer tutmuş tədbirlərdən biri də Beynəlxalq ailə ilinin qeyd edilməsidir. 1999-cu ildə Nazirlər kabineti tərəfindən təsdiq edilmiş gənc ailə proqramının ardıcıl həyata keçirilməsi bu tədbirlərin davamı olmuşdur. Zərdab Rayon İcra Hakimiyyəti başçısı 1988-ci ildə belə bir sərəncam imzalamışdır. Bu sərəncama və Mədəniyyət Nazirliyinin 303 saylı 2 oktyabr 2002-ci il tarixli əmrinə əsasən beynəlxalq ailə ilinin 10-cu ildönümünün qeyd edilməsi məqsədi ilə mədəni-maarif müəssisələrində tədbirlər işlənib həyata keçirilmişdir. Bu tədbirlərin ən əsası yenə də gənclərlə bağlı olmuşdur. Ailənin ilk əsası gənclər tərəfindən qoyulur. Mədəniyyət evində "Gənclər nikaha hazırmı?" mövzusunda diskusiya təşkil edilmişdir. Bu tədbirə nümunəvi ailə başçıları da dəvət olunmuşlar. Tədbirdə gənc ailənin bir-birinə qarşılıqlı münasibətlərindən, ailələrin pozulmasına gətirib çıxaran neqativ hallardan söhbət açılmışdır. MKS-də "Ailədə uşaq necə tərbiyə edilməlidir?" mövzusunda geniş diskusiya təşkil edilmişdir. Bu tədbir rayonda geniş səda doğurmuşdur. Demək olar ki, iştirakçılar problemin həllində yaxından iştirak etməyə can atırdılar.

Maraqlı tədbirlərdən biri də rayon mədəniyyət evində təşkil edilmiş adətimiz, ənənəmiz mövzusunda olan tədbirdir. Bu tədbirdə nikah, toy mərasimlərinin bayağılaşdırılması və onları doğuran səbəblərdən söhbət açılmışdır.

Gəndəbil kənd mədəniyyət evinin təşkil etdiyi maraqlı tədbir xüsusi ilə fərqlənmişdir. Bu tədbir "Ailə başçısı kimdir?" mövzusunda təşkil edilmişdir. Bu tədbirdə ailədə spirtli içkilərə, tütün məmulatlarına aludəçilik və onlardan yaxa qurtarmaq, hətta bununla əlaqədar ailə münaqişələri ilə bağlı fikirlər söylənilmişdir. Gödəkqobu kənd mədəniyyət evi daha irəliyə gedərək cəmiyyətdə ailənin rolu mövzusunda maraqlı, yaddaqalan tədbir keçirmişdir. Bununla bağlı tədbirlər Yarməmmədbağı, Pərvanlı kənd mədəniyyət evlərində və kitabxanalarda müntəzəm olaraq həyata keçirilmişdir.

Mədəni-maarif müəssisələrində keçirilən maraqlı tədbirlərdən biri də Beynəlxalq ana dili gününün qeyd edilməsidir. Bütün dünya xalqları öz ana dilinə hörmətlə yanaşaraq onu qoruyub saxlamış və inkişaf etdirmişdir. Azərbaycanda müxtəlif xalqların nümayəndələri yaşayırlar. O cümlədən Zərdabda rus, ukraynalı, ləzgi xalqlarının nümayəndələri yaşayırlar. Onların ana dilinə hörmətlə yanaşılır. Rayon mədəniyyət evinin keçirdiyi tədbirlərdə rayonda yaşayan xalqların nümayəndələrinin iştirakı müntəzəm olaraq təmin edilir. Onlar öz dillərində mahnı və rəqslər ifa edirlər ki, bu da tamaşaçılar tərəfindən böyük maraqla qarşılanır.

MKS-də beynəlxalq ana dilinə həsr edilmiş 3 saylı məktəbin aşağı sinif şagirdlərinin iştirakı ilə "İngilis dilini öyrənirik" devizi altında təşkil edilmiş tədbirdə azərbaycanlı uşaqların ingilis dilində sərbəst danışıqları, onun maraqlı dil olduğundan söhbət açılmışdır.

Mədəni-maarif müəssislərində tədbirlər planının əsasını təşkil edən "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi" ilə bağlı tədbirlərin planlaşdırılması Azərbaycan Respublikası Prezidentinin 17.02.2004-cü il tarixli 28 saylı sərəncamı ilə bu fərmanın icrasının təmin edilməsinin əsas məqsəd və məramından xəbər verir. Bununla əlaqədar olaraq mədəni-maarif müəssisələrində bir sıra tədbirlər işlənib hazırlanmışdır. Bu tədbirlər çağırışçıların həqiqi hərbi xidmətə yola salınması kompaniyası ərəfəsində daha tez-

tez təşkil edilmişdir. Bu da gənclərimizi ordu sıralarında Vətənə xidmət etməyə səsləyir. Onları torpağa, xalqa bağlılıq ruhunda tərbiyə etmək üçün rayonun bədii özfəaliyyət kollektivləri müntəzəm olaraq "N" hərbi hissələrdə Tərtər, Bərdə, Yevlax, Gəncə şəhərlərində əsgərlər qarşısında maraqlı konsert proqramları ilə çıxış etmişlər. Bu tədbirlər adətən rayon mədəniyyət evinin "Asudə vaxt" mərkəzində, veteranlar klubunda, gənclərimizin müntəzəm olaraq toplaşdığı "Naməlum əsgər"in abidəsi önündə təşkil edilir.

1941-1945-ci illərdə alman faşizmi üzərində qələbənin 60 illik yubileyi ilə əlaqədar rayon mədəniyyət evinin foyesində "Qələbə-60" foto-guşəsi təşkil edilmişdir. MKS-də isə yubiley ilə əlaqədar görüş təşkil edilmişdir. Rayonda yerləşən "Veteran" klubunun əsaslı təmir edilməsi, onlara qayğının daha da artırılması mədəniyyət şöbəsinin diqqət mərkəzindədir.

Rayonda mədəniyyət şöbəsinin nəzdində fəaliyyət göstərən MKS-i 42 kənd kitabxana filialı, 5 şəhər, 1 uşaq və 1 mərkəzi kitabxananı özündə birləşdirir. 2004-cü ildə alınmış yeni kitablar da daxil olmaqla MKS-in kitab fondu 325764 nüsxə təşkil edir. Cari ildə Respublika Kitabxana Kollektoru ilə bağlanmış müqaviləyə əsasən 329 nüsxə ədəbiyyat alınmışdır ki, onlara 6213,1 min manat vəsait ödənilmişdir.

**Tural**